

# ŞƏRQ qapısı


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 235 (23.877)

17 dekabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində çıxış edib. Dövlətimizin başçısı uğurla inkişaf edən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək Avropa İttifaqı ilə Azərbaycan arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirib.

Dövlətimizin başçısı Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini, Şərq Tərəfdaşlığının VI Sammitində Ermənistan ilə Azərbaycan arasında konstruktiv mühitin hökm sürdüyünü qeyd edib. Sonda Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına verdiyi töhfəyə görə Avropa İttifaqı Şurasının Prezidentinə bir daha minnətdarlığını bildirib. Sonra Sammitdə iştirak edən dövlət və hökumət başçılarının işçi naharı olub. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

***

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında qeyri-formal görüş keçirilib.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti dekabr ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin müvafiq Qərarı ilə muxtar respublikada işaxtaran şəxslərin, habelə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Agentliyinin tabeliyində "Qabıllı Quşçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Nazirlər Kabinetinin 2021-ci il 8 dekabr tarixli Qərarı ilə "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 2020-ci il 21 avqust tarixli Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi publik hüquqi şəxsin tibbi profilaktik tədbirləri həyata keçirən işçilərinə, pasiyentlərə stasionar tibbi xidmət göstərən və bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, həmçinin Səhiyyə Nazirliyinin təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tibb işçilərinə və koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən digər səhiyyə müəssisələrinin tibb işçilərinin əməkhaqlarına ödənilən əlavənin müddəti noyabr ayının 1-dən 2022-ci il yanvar ayının 1-dək uzadılmışdır.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 9 dekabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nda və "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifəsinin tutulması məqsədilə müsahibə elanının Forması"nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən "sertifikat" sözü ifadə etdiyi hüquqi mənasına uyğun olaraq "Dövlət qulluğu sertifikatı" anlayışı ilə əvəz olunmuş, barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçularının müsahibədən kənarlaşdırılması müddəti bir ildən altı aya endirilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə 2010-cu il 18 fevral tarixli Qərarında dəyişiklik edilərək psixi və sair xəstəliklərə tutulmuş məhkumların tibbi şəhadətləndirilməsinin keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin nəzdində xüsusi həkim ekspert komissiyasının yeni tərkibi təsdiq edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2021-ci il 9 dekabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası" təsdiq edilmişdir.

Eləcə də Nazirlər Kabinetinin 2021-ci il 13 dekabr tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Distant Təhsil Mərkəzi yaradılmış və mərkəzin fəaliyyət Qaydası təsdiq edilmişdir. Adıçəkilən Qaydaya əsasən mərkəzdə tədris sağlamlıq imkanları məhdud uşaqların təhsil alması üçün xüsusi dövlət təhsil standartları və proqramları əsasında həyata keçirilir. Mərkəz Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin nəzdində fəaliyyət göstərir. Mərkəzin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqlara zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını və təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Mərkəzə cari ilin 1 sentyabrınadək 6 yaşı tamam olan, sağlamlıq vəziyyətinə görə ümumtəhsil məktəblərində oxuya bilməyən uşaqlar cəlb olunur. Qeyd edək ki, qanunvericiliklə müəyyən edilmiş qaydada ümumi təhsil pilləsinin ümumi orta və tam orta təhsil səviyyəsini başa vuran məzunlara attestat verilir.

Nazirlər Kabinetinin 2021-ci il 13 dekabr tarixli Qərarı ilə Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilmişdir. Həmin normativ-hüquqi aktlardan "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nda edilmiş dəyişikliyə görə əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, sağlamlıq imkanları məhdud şəxslər və bu sosial kateqoriyaya aid uşaqlar, xəstəliyin terminal mərhələsində olan şəxslər evdə sosial xidmət göstərilməsi üçün "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda edilmiş dəyişikliyə görə isə şəxs müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün müavinət, təqaüd və kompensasiya almaq hüququ yarandıqdan sonra yaşayış yeri üzrə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin şəhər, rayon əhalinin sosial müdafiə mərkəzləri ilə yanaşı, şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və sağlamlıq imkanları məhdud şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə də müraciət edə bilər.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

*Culfa rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilmişdir.*

## Qəbulun nəticələri müzakirə edilib



Tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev bildirmişdir ki, dövlət qayğısı nəticəsində Culfa rayonunda yerləşən bütün məktəblər üçün yeni binalar inşa edilib, məktəb binaları müasir tədris avadanlıqları, kompüterlər, elektron lövhələr, zəngin fonda malik kitabxanalar, açıq idman qurğuları və idman zalları ilə təmin olunmuşdur. Culfa rayonunun təhsilində qazanılan nailiyyətlər göstərilən bu diqqət və qayğının nəticəsidir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirmişdir ki, rayon Təhsil Şöbəsinin tabeliyində 25 tam orta məktəb və 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ümumtəhsil məktəblərində 410 sinifdə 5437 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 862 müəllim məşğul olur. Qeyd olunmuşdur ki, rayon təhsil şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 328 məzunundan 303-ü ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmişdir. Onlardan isə 224-ü ali və orta ixtisas təhsili müəssisəsinə qəbul olmuşdur. 32 məzun imtahanlarda 500-700 arası bal toplamışdır ki, onlardan da 1-i Prezident təqaüdünə layiq görülmüşdür. Təhsildə qazandıqları nailiyyətlərə görə məzunlardan 1-i "Qızıl", 5-i "Gümüş" nişana, 7-si isə fərqlənmə attestatına layiq görülmüşdür.

Təhsil naziri nəticəsi yaxşı olan məktəblərin kollektivlərinə təşəkkür etmişdir.

Sonda nazirlik tərəfindən ötən tədris ilində keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən 13 məktəbə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Ötən ay 656 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən cari ilin noyabr ayı ərzində mülkiyyət hüquqlarının operativ qeydiyyatı təmin edilib, torpaq fondundan səmərəli istifadə diqqətdə saxlanılıb.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə ay ərzində Şərur rayonunun Ərəbyengicə, Qışlaqabbas, Qarahəsənli, Diyadin, Xanlıqlar, Babəki, Stansiya Daşarx kəndlərinin və Kəngərli rayonunun Xok kəndinin ərazisində aparılan monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntuları aradan qaldırılıb. Şərur rayonunun Vayxır, Tumaslı, Tənənəm, Təzəkənd və Vərməziyar kəndlərinin ərazisində monitorinqlərə başlanılıb.

Şahbuz rayonu ərazisində əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahələrinin planı hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə Culfa rayonunun Dizə kəndində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri ilə birlikdə torpaq mülkiyyətçiləri, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib. Torpaqların qida maddələri ilə təmin olunmasına dair yenilənmiş kartoqramlar rayonun Dizə və Şurud bələdiyyələrinə təqdim edilib, kartoqramlardan istifadə qaydaları izah olunub.

Ötən ay ərzində 656 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 487 texniki sənəd hazırlanıb, yeni yaranmış 25 daşınmaz əmlak obyektinə ünvan verilib, 92 torpaq sahəsinin plan və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində 28 vətəndaşın müraciətinə baxılıb, 99 fiziki və hüquqi şəxs elektron xidmətlərdən yararlanıb. 7 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 6 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 1100 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Naxçıvanda *“1001 Home”* mağazası fəaliyyətə başlayıb

*Muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsinə verilən dəstəyin, sahibkarlar üçün yaradılan şəraitin və şəffaf mühitin təmin edilməsinin nəticəsidir ki, bu sahə sürətlə inkişaf edir. Bunu muxtar respublikada sahibkarlıq subyektləri tərəfindən yaradılan yeni-yeni istehsal və xidmət obyektlərinin istifadəyə verilməsindən aydın şəkildə görmək olar.*

Naxçıvanda daha bir xidmət sahəsinin “Cahan” Alış-Veriş Mərkəzinin bazasında fəaliyyətə başlayan “1001 Home” mağazasının açılışı olub.



Açılış mərasimində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikamızda sahibkarlığın daha da inkişaf etdirilməsi, biznes innovasiyası təşəbbüslərinin fəal şəkildə dəstəklənməsi iqtisadi fəallığın artmasına imkan yaradıb.

1995-ci ildə yaradılan Cahan Holdinq dünya təcrübəsindən istifadə edərək sənaye, tikinti sahələri ilə yanaşı, əhaliyə nümunəvi xidmət etmək imkanlarına malik müasir xidmət və ticarət mərkəzləri yaradır. “Cahan” Alış-Veriş Mərkəzinin bazasında “1001 Home” mağazasının istifadəyə verilməsi də bu istiqamətdə görülən işlərin bariz nümunəsidir.

Nazir ərazisi 3000 kvadratmetrdən 3.900 kvadratmetrə çatdırılan mağazada muxtar respublika əhalisinin tələbatına uyğun olan ən keyfiyyətli və sərfəli qiymətlərlə təklif edilən santexnika, çilçıraq və işıqlandırma, asma tavanlar, divar üzlükləri, elektrik ləvazimatları, istilik sistemləri, müxtəlif qapı və mebel məmulatları, məişət əşyaları bölmələrinin yaradıldığını vurğulayıb.

Mağazanın 2000 kvadratmetri satış bölməsinin, 1900 kvadratmetri anbar və ofis bölmələrinin payına düşür. Burada yerli məhsullarla yanaşı, bir sıra xarici ölkələrin istehsalı olan 10.000 çeşiddən çox məhsulun satışı həyata keçirilir. Burada yerli məhsullarla yanaşı, Almaniya, Hollandiya, Türkiyə, Çin və digər ölkələrin istehsalı olan məhsullar da satılır. “1001 Home” satış mağazasının əsas məqsədi qarşıdakı 5 il ərzində öz əhatə dairəsini genişləndirərək mağazalarının sayını 60-a çatdırmaqdır.

Mağaza alıcıların rahatlığını təmin etmək üçün nağd, post-terminal, elektron ticarət, kredit kartları və daxili kredit üsulları vasitəsilə satış həyata keçirməklə yanaşı, müştərilərə evə çatdırılma və montaj xidmətlərini də təklif edir.

Mağazada yenidənqurma aparıldıqdan sonra 15 yeni iş yeri açılmaqla, ümumilikdə, işçilərin sayı 50-yə çatdırılıb. İşçilər yemək, servis və xüsusi geyim forması ilə təmin olunublar. Mağazada istilik və soyutma, təhlükəsizlik kameraları, yanğından mühafizə sistemləri quraşdırılıb.

İqtisadiyyat naziri Tapdıq Əliyev muxtar respublikanın sosial-iqtisadi tərəqqisinə, sahibkarlıq fəaliyyətinin inkişafına, istehlakçıların tələbatının daha dolğun ödənilməsinə, əhalinin rifahının yüksəldilməsinə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov muxtar respublikada aparılan tikinti-quraşdırma və abadlıq işləri nəticəsində qədim diyarımızın günü-gündən inkişaf etdiyini, tikinti işləri zamanı keyfiyyət amilinin diqqətdə saxlanıldığını vurğulayıb. Belə mağazanın muxtar respublikada açılması əhalinin və şirkətlərin tikinti materiallarına olan tələbatının keyfiyyətli və sərfəli qiymətlərlə əldə edilməsinə şərait yaratdığını diqqətə çatdırıb.

Tədbirdə “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının rəhbəri Vüqar Abbasov Ali Məclisin Sədrinə minnətdarlıq edərək bildirib ki, muxtar respublikada özəl sektorun inkişafı üçün yaradılan şərait, göstərilən diqqət və qayğı biz sahibkarlara böyük stimul verir və yeni istehsal obyektləri, xidmət sahələri açmağa sövq edir. İnanırıq ki, yeni mağazanın məhsulları yerli bazarda özünəməxsus yer tuta biləcək.

Daha sonra mağazaya baxış olub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Yeniləşən kəndlərimiz*

## Qədim Göynük müasir görkəmdə

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diyarımızın sosial-iqtisadi inkişafı haqqında dediyi sözlər hər birimizdə böyük sevinc və qürur hissi yaradır:* ***“Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir”.***



Bu gün Naxçıvan, sözün əsl mənasında, inkişaf edir, çiçəklənir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Bunu Babək rayonunun Göynük kəndinin timsalında daha aydın görmək mümkündür. Məlumat üçün bildirək ki, bu il noyabrın 22-də kənddə quruculuq tədbirləri çərçivəsində tam orta məktəb, feldşer-mama məntəqəsi, kənd və xidmət mərkəzləri üçün binalar istifadəyə verilib. Sakinlərlə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov onları təbrik edərək demişdir: ***“Göynük səfalı və geniş imkanlara malik kənddir. Bu gün həm bələdiyyə və dövlət, həm də şəxsi mülkiyyətdə olan torpaqlar imkan verir ki, kəndin inkişafı bundan sonra da təmin olunsun. Göynükdə, əsasən, heyvandarlıq və maldarlıq inkişaf edib, məskunlaşma artıb, yeni evlər tikilib. Bu da inkişafın göstəricisidir. Yaradılan şəraitdən sonra məskunlaşma daha da artacaq və ərazidən səmərəli istifadə olunacaq, maldarlıq, heyvandarlıq, arıçılıq, meyvəçilik, bitkiçilik inkişaf etdiriləcəkdir. Bunun üçün isə lazım olan hər bir şərait var. Sakinlərin rayon mərkəzinə, Naxçıvan şəhərinə gediş-gəlişinin rahat olması üçün yol da abadlaşdırılıb. Yolda işlər hələ davam etdiriləcək. Bütün bunlar insanların rahat yaşaması üçündür. Kənd tamamilə qazlaşdırılıb, daimi elektrik enerjisi ilə təmin olunub, rabitə, internet, poçt və tibb xidməti yaradılıb”.*** Biz də bu yaxınlarda kənddə yaradılan şəraitlə daha yaxından tanış olmaq üçün üz tuturuq Göynüyə. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yaqub Xudatovla kənd mərkəzində görüşürük. O bizi müşayiət edib kəndi gəzdirməyə başlayır. Bu vaxt ağsaçlı, gözündə qara şüşəli eynək olan ağsaqqal bir kişi əlindəki bəzəkli, şirmayı rəngli əsanı, el dilində desək, ustufca yerə vura-vura yolun o başından bizə tərəf addımlayırdı. Yaqub müəllim bildirdi ki, bu gələn şəxs əvvəllər icra nümayəndəliyində mühasib işləyən kənd ağsaqqalı İbrahim Həmzəyevdir. Və o, Göynüyün tarixi, dünəni haqqında daha çox məlumata malikdir. Elə ilk tanışlıqda Göynük haqqında İbrahim baba ilə şirin söhbətimiz alınır. Deyir ki, Göynük adı ilk dəfə XIII əsrdə baş vermiş hadisələrlə bağlı Bizans mənbələrində çəkilmişdir. Kəndin adının mənasının bir neçə izahı vardır. Azərbaycan toponimiyasında Göynük göyrük “yaşıl sahə, otlu sahə” mənasını, eyni zamanda “kənd, el, məskun yer” mənasını da ifadə edir. Deyilənlərə görə, Göynük kəndinin tarixinin böyük bir hissəsi Oğuz türkləri ilə bağlıdır. Adından da göründüyü kimi, bu yerlərin gözəl təbiəti insanlarının da ruhuna sirayət edib. Uca dağların qoynunda yerləşən, şəfalı bulaqları, təmiz havası, gülərüz insanları ilə... İbrahim baba söhbətini davam etdirir: – Qızım, bəlkə də, yadına gələr, vaxtilə qazımız, işığımız bərbad vəziyyətdə idi. Necə deyim, işıq fasilələrlə verilirdi, qaz çəkilməmişdi, rabitə yox idi. Çox şükür, bu gün kəndimizdə bu göstəricilərə görə əvəzi olmayan işlər görülmüşdür. Daimi işığımız, rahat yaşayışımız var. Bundan başqa, kəndimizə 8 kilometr boru vasitəsilə su çəkilmişdir ki, bu da kənd camaatının içməli və suvarma suyundan istifadəsini təmin edir. Dolanışığımız gündən-günə yaxşılaşır. Kəndimizdə tikilən yeni məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, çəkilən müasir və rahat yol dövlətimizin vətəndaşlarına qayğısının əyani ifadəsidir. İbrahim Həmzəyevdən gənclərlə bağlı fikirlərini soruşuruq. Deyir ki, indi muxtar respublikamızda gənclərə xüsusi diqqət göstərilir, elə kənd inzibati icra nümayəndəliyində də müxtəlif vəzifələrə gənclər təyin edilib. Əvvəllər kənd sakinləri işləmək üçün şəhər mərkəzinə gedirdilər. Bu gün isə gənclərimiz uzağa getmədən iş yerləri ilə təmin olunurlar. Müsahibimiz yeni istifadəyə verilmiş obyektlərlə bağlı sevincini də bizimlə bölüşür və görülən işlərin kənd sakinləri tərəfindən razılıqla qarşılandığını bildirir.



İcra nümayəndəsi ilə yeni obyektləri gəzirik. Bunlardan ən böyüyü kənd tam orta məktəbinin binasıdır. Məktəbin direktoru Zəfər Ələkbərov pedaqoji kollektivə göstərilən qayğı üçün minnətdarlığını bildirərək deyir ki, təhsil ocağının binası müasir tədris şəraitinə və yüksək maddi-texniki bazaya malikdir. Burada tədris üçün lazım olan bütün avadanlıqlar quraşdırılıb. Öyrənirik ki, 3 mərtəbədən ibarət olan məktəbdə 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, 1 elektron lövhəli sinif, hərbi kabinə, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı istifadəyə verilib. Kitabxana fondunda isə 1014 kitab vardır. STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmışdır. Kabinə mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilmişdir.

Müəllim Günay Babayeva söhbətə qoşulur: – STEAM fənninin tədrisində məqsəd xüsusi bacarığı olan şagirdləri üzə çıxarmaq və hər şagirddə bu haqda bilik formalaşdırmaqdır. STEAM dərsini 6 və 7-ci siniflərə tədris edirəm. 6-cı siniflərlə tinkercat proqramında, 7-ci siniflərlə isə mikrobit proqramında işləyirik və həmçinin may ayında olacaq sərgi üçün layihə hazırlamağa başlamışıq. Qeyd edim ki, kənd məktəbində yaradılan şərait sakinlərin uzun illərdən bəri ürəklərində olan arzularını reallaşdırıb. Bütün gücümüzlə çalışacağıq ki, bizə göstərilən etimadı doğruldaq.

Daha sonra Rabitə evində Bəhriyyə Abbasova ilə həmsöhbət oluruq. Deyir ki, 22 yaşım var və indiyə qədər kəndimizdə bu cür şərait görməmişəm. Uşaqlığım palçıqlı yollarda su daşımaqla keçib. Qış mövsümündə məktəbə getmək digər şagirdlər kimi mənim üçün də, sözün əsl mənasında, əziyyət idi. Qış geyimində dərs keçmək, odun sobasında qızınmaq hansı şagird üçün dərsi səmərəli edərdi ki? Amma indi təhsil alanlar üçün hər cür şəraiti olan məktəbimiz var. İndi işlərimiz çox asanlaşıb. Özüm Rabitə evində işlə təmin olunmuşam. Artıq kəndimizin sakinləri uzaq yol qət edib, əlavə xərc çəkib rayon mərkəzinə getmirlər. Bütün ehtiyaclar kəndin daxilində ödənilir. Bizə isə yaradılan şəraitdən bəhrələnib, tikilib-qurulanları qorumaq düşür.

Kənddə olduğumuz zaman ailə təsərrüfatı ilə məşğul olan kənd sakinləri ilə də görüşdük. Onlardan biri də arıçılıqla məşğul olan Zülfüqar Xudatovdur.

Zülfüqar dayı sevimli peşəsi ilə bağlı dedi ki, arılar təbiətin möcüzəsidir. Təsadüfi deyil ki, müqəddəs “Qurani-Kərim”də də bal arısı ilə bağlı ayə yer alır. Rəhmətlik atababam da arıçı olublar. Bu sənətin sirlərini onlardan öyrənmişəm və 30 ildir ki, bu işlə məşğulam. Təcrübəmdən deyə bilərəm ki, Göynük



balı öz dad-tamı ilə digər ballardan fərqlənir. Ona görə ki, burada sulu sahə olmadığı üçün balın şirəlik dərəcəsi 80, 85 dərəcəyə çatır. Dağ balının min bir dərdin dərmanı, əsl möcüzə olduğunu elm də təsdiq edir. Onu da deyim ki, kəklikotundan, qantəpərdən, cökədən, baldırğandan çəkilən şirə bir çox sağalmaz xəstəliklərin dərmanıdır. Hər il bir tondan artıq balımız olur. Çoxları onu dərman kimi alıb istifadə edir. Zülfüqar dayı ilə söhbət zamanı onda əksər dağ adamlarına məxsus qəribə bir xüsusiyyət də müşahidə etdim. O öz ailələri ilə arılar arasında bir oxşarlıq axtarır. Və qənaətində onu tapır da. Deyir ki, anamız bizi arıların qanunları ilə tərbiyə edib. Yaşamaq üçün hamı işləməli, hər kəs zəhmət çəkməlidir. Hər şeydə halallıq gözlənilməlidir. Arıya haram əl uzansa, o, mütləq məhv olacaq.

“Qışlama dövründə arıya necə qulluq göstərirsiniz?” sualıma Zülfüqar dayı cavab verərək bildirdi ki, payız-qış dövrü üçün hər arı ailəsinə tələb olunan yemin 60-80 faizini pətəkdə, qalan hissəsini isə anbarda saxlayıb, ehtiyac olduqda veririk. Arı ailələrini qışlamaya hazırlayarkən hər çərçivə arası arı üçün 2-2,5 kiloqram bal saxlayırıq. Bununla yanaşı, arının üstünə döşəkcə qoyub və arakəsmə veririk ki, arı qışda soyuğa dözsün.

Müsahibim söhbətinə davam edərək deyir: – İstehsal etdiyim balı hər il keçirilən “Ailə təsərrüfatı məhsulları” satış yarmarkasına çıxardıram. Dövlətimizə minnətdaram ki, bizim üçün bugünkü gündə hər cür imkanlar yaradıb və biz də bundan yararlanaraq məhsullarımızı nümayiş etdirib satıb qazanc əldə edirik.

Göynükdə bağçılığa da xüsusi önəm verilir. Kənd sakini Dilsuz Əhmədov ailəsinin dolanışığını təmin etmək üçün mülkiyyətində olan pay torpağında meyvə bağı salıb. Deyir ki, bağımdakı meyvə ağaclarını gəlirliyini də nəzərə almışam. Elə buna görə də calaq olunmuş, əsasən, alma, armud, heyva, badam, cəviz ağaclarını alıb əkmişəm. Təbii ki, mənim kimi digər bağ sahibləri meyvə ağaclarından bol məhsul götürüb, daha çox gəlir əldə etməyə çalışırlar. Bunun üçün bağçılıqda bəzi məqamlara fikir verməliyik. Ən əsası ağaclara vaxtlı-vaxtında qulluq edilməlidir. Bu, məhsuldarlıqda birinci qayda sayılır. Bununla yanaşı, yaz aylarında ziyanvericilərə və digər xəstəliklərə qarşı aparılan profilaktik tədbirlərə də diqqət yetirirəm. Ağacların gövdəsini xüsusi məhlulla dərmanlayır və dibinin bellənməsi zamanı mineral gübrələr verirəm. Qış mövsümündə ağacların boy, inkişaf və məhsuldarlığını tənzimləmək məqsədilə budayıram. Ağaclar budandıqda cavanlaşır, məhsuldarlığı artır. Budanmış ağacın meyvələri də sağlam və iri olur. Muxtar respublikamızda, əsasən, yerli meyvə ağaclarının əkilməsi yurdumuza gözəllik, süfrəmizə bərəkət, dövlətimizə gəlir gətirir.

Göynüklülərlə söhbət zamanı aydın oldu ki, bu yurd yerinin insanları da torpağa, təsərrüfata daha möhkəm bağlanıb, muxtar respublikamızda daxili bazarın möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişafına öz töhfələrini verirlər.

***Gördüklərimizə, eşitdiklərimizə və şahidi olduqlarımıza əsaslanaraq deyə bilərik ki, bu gün Göynükdə yüksək mütəşəkkillik, sağlam mənəvi-psixoloji mühit, yaradıcı və təşəbbüskar ab-hava var. Bütün bunlar ölkəmizin müstəqilliyinin real bəhrələridir. Əldə olunan mühüm nəticələr isə muxtar respublikamızın hərtərəfli inkişafının göstəricisidir.***

✍ **Aytac CƏFƏRLİ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 17 dekabr 2021-ci il-17 yanvar 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

